# Azərbaycan xalqının iradəsi sarsılmazdır

*Zillət ilə ləzzəti olmaz*
*həyatın, dustilər,*
*Nəğdi-can sərf eyləyib dünyadan*
*kam almaq gərək.*
*Əcz ilə dönmək ədudən səhlidir,*
*himmət tutub,*
*Ya şəhid olmaq gərək,*
*ya intiqam almaq gərək!*

*Məhəmməd FÜZULİ*

Xalq, ölkə, dövlət və Prezidentimiz üçün həssasdan da həssas olan günləri yaşayırıq. Düşmən tapdağından təmizlənən yaşayış məntəqələrimizin siyahısı böyüdükcə, sevincimizin miqyası da ölçüyəgəlməz olur. Ancaq nadan, cahil, qaniçən, oğru və quldurlardan ibarət olan Ermənistanın bombardmanlarının hədəfinə çevrilən şəhər və kəndlərimizin dağıdılması, günahsız körpələrin qanına qəltan edilməsi, mülki şəxslərə divan tutulması, qəhrəman ordumuzun şəhidlər verməsi də ürəyimizi dağlayır. Yəni tariximizin sevincli, şərəfli səhifələri ilə yanaşı, kədərli səhifələrini bərabər yazmalı oluruq.

Belə bir zamanda – ölkə Prezidentinin xalqa tarixi müraciətlərindən biri haqqında qələmə aldığımız yazının əvvəlində iki bədii parçaya istinad etməyimiz bəlkə də siyasi xarakterli materialın ruhu ilə üst-üstə düşmür. Amma, inanın ki, bunu biz istəmirik, zaman tələb edir. Yaradıcı adamların öz mükəmməl əsərlərini, məhz ən sevincli və ən kədərli günlərində yaratdıqlarını söyləyənlər tamamilə haqlıdırlar.

Biz ustad şairin yaradıcılığından seçdiyimiz dördcə sətirlə sübut etmək istədik ki, Məhəmməd Füzuli xalqımızın haqq-ədalət mübarizəsinə böyük önəm verir, zalıma, işğalçıya boyun əyməməyə çağırırdı. Ədunun (qanlı, qəddar düşmənin) qarşısından əcz ilə (acizliklə) qayıtmağın alçaldıcı, təhqiredici olduğunu xatırladan şair öz mövqeyini ortaya qoyur: "Ya şəhid olmaq gərək, ya intiqam almaq gərək!" Azərbaycan xalqı və rəşadətli ordumuz bu gün, məhz Vətənin, torpaqlarımızın azadlığı uğrunda döyüşür, qəhrəmanlıq dastanı yazır.

Yada salmaq istədiyim ikinci bəndə gəlincə isə... Bazar günü yaxın qohumlarımızdan biri zəng edərək dedi: "Şəhid gətirdilər!" Dərhal cavab verdim ki, ordumuz daha bir neçə kəndi azad edib. Telefonun dəstəyini yerinə qoyandan sonra Səməd Vurğunun Üzeyir bəy Hacıbəyovun dəfn edildiyi gün oxuduğu şeirin bir bəndi yadıma düşdü:

*Ölüm sevinməsin qoy,*
*ömrünü vermir bada*
*El qədrini canından*
*daha əziz bilənlər.*
*Şirin bir xatirətək*
*qalacaqdır dünyada*
*Sevərək yaşayanlar,*
*sevilərək ölənlər...*

Dahi Üzeyir bəy haqqında yazılmış bu şeiri 18-20 yaşlı şəhid balalarımıza da şamil etmək qədirbilənlik nümunəsi olar. Amma onu da bilirəm ki, mən Ali Baş Komandan İlham Əliyevin şəhid anasının önündə baş əydiyini, onun əlini öpdüyünü görmüş milyonlardan biriyəm. Bu məqamda adam sevilərək ölənlərə, ölərək sevilənlərə – şəhidlərə həsəd aparır. Çünki onlar Azərbaycan xalqı durduqca yaşayacaqlar.



*Biz Füzuliyə qayıdacağıq, biz bütün kəndləri yenidən quracağıq, abadlaşdıracağıq. O kəndlərə həyat qayıdacaq. Necə ki, vaxtilə ulu öndərin rəhbərliyi ilə Azərbaycan Ordusu Füzuli rayonunun 22 kəndini işğaldan azad edib, o cümlədən, Horadiz qəsəbəsini... Bu gün artıq füzulililərin yaşadıqları kəndlər azad edilib və oraya həyat qayıdacaq, onlar qayıdacaqlar, onlar orada yaşayacaqlar, öz əcdadlarının qəbirlərini ziyarət edəcəklər. Orada bərpa olunacaq məscidlərdə azan səsi eşidiləcək... Mən tam əminəm ki, bundan sonra da şanlı Azərbaycan Ordusu işğalçıları torpağımızdan qovmağa davam edəcəkdir.*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa 17 oktyabr tarixli müraciətindən**

# İlham ƏLİYEV: Biz öz şərəfli missiyamızı yerinə yetiririk

...Prezident İlham Əliyev xalqa müraciətində bildirdi ki, bu gün Ermənistanın faşist rəhbərliyi növbəti hərbi cinayət törədib. Gəncə və Mingəçevir şəhərləri raket atəşinə məruz qalıb. Bu, bir daha Ermənistan rəhbərliyinin faşist mahiyyətini göstərir: "Birinci dəfə deyil ki, bizim şəhərlərimiz atəşə məruz qalır və demək olar ki, hər gün Tərtər, Ağdam, Goranboy, Ağcabədi və digər şəhərlərə Ermənistan atəş açır. Bu atəş nəticəsində vətəndaşlarımız həlak olur, yaralanır, 2 mindən çox ev dağıdılıb, ya da ki, bu evlərə çox böyük ziyan vurulubdur. Ancaq bu namərd hərəkətlər Azərbaycan xalqının iradəsini qıra bilməz".

Bəli, insan qanı ilə qidalanırmış kimi quduzlaşan ermənilər, həqiqətən bizim xalqımızın, dövlətimizin, xüsusən, əsgərimizin iradəsini qıra bilmir. Cəbhədən gələn xəbərlərdə deyilir ki, müzəffər Azərbaycan Ordusu düşmənləri torpağımızdan qovur. Çəkilmiş videomateriallarda ermənilərin öz döyüş postlarını qoyub qaçdığını göstərən məqamlar istənilən qədərdir. Dövlət başçımız onlara xəbərdarlıq etmişdi ki, öz xoşları ilə bizim torpaqlarımızdan çıxmasalar, biz onları iti qovan kimi qovacağıq və qovuruq. Biz, sözün həqiqi mənasında, Azərbaycan üçün misilsiz nailiyyətlərin şahidinə çevrilirik.

Əlbəttə, düşmənin sentyabrın 27-dən bəri verdiyi itkilərin sayı-hesabı yoxdur. Son günlərdə isə həmin itkilərin sırası daha da "zənginləşir". Dövlət başçımız adı çəkilən müraciətində son günlər ərzində Azərbaycan Ordusu tərəfindən məhv edilmiş Ermənistan texnikasının bir hissəsinin siyahısını xalqın diqqətinə çatdırdı: "Beləliklə, məhv edilmiş Ermənistan texnikası: tank – 234 ədəd məhv edilib, 36 tank hərbi qənimət kimi götürülüb, piyadaların döyüş maşını – 49-u məhv edilib, 24-ü hərbi qənimət kimi götürülüb. Özüyeriyən artilleriya qurğusu 16 ədəd məhv edilib, müxtəlif çaplı toplar 190, "Uraqan" sistemi 2, TOS odsaçan 1, əməliyyat taktiki raket kompleksi "Elbrus" 2, "Toçka-U" 1, OSA zenit raket kompleksi 35, TOR zenit-raket kompleksi 3, KUB və "Kruq" zenit raket kompleksi 5, radioelektron mübarizə sistemləri 9, S-300 zenit raket kompleksi 2, yük avtomobilləri 196-sı məhv edilib, 98-i qənimət kimi götürülüb. Hər bir adam, hər bir mütəxəssis bu texnikanın qiymətini açıq mətbuatdan götürə bilər və bu suallara biz cavab tapmalıyıq və tapacağıq".

Ekspertlərin fikrincə, Ali Baş Komandanın müraciətinin bir abzası da var idi ki, televiziya tamaşaçılarının böyük əksəriyyəti həmin məqamı ayaq üstdə alqışlayırdı: "Bu gün Füzuli rayonunun aşağıdakı yaşayış məntəqələri işğalçılardan azad edilib – Qoçəhmədli kəndi, Çimən kəndi, Cuvarlı kəndi, Pirəhmədli kəndi, Musabəyli kəndi, İşıqlı kəndi, Dədəli kəndi və Füzuli şəhəri. Füzuli şəhəri işğalçılardan azad edilib, Füzuli bizimdir, Qarabağ Azərbaycandır!"

Dövlət başçımız xatırlatdı ki, bu, sirr deyil, biz Füzuliyə hansı tərəfdən girə bildik: "Düşmən son mərhələdə öz silahlarını yerə qoyub qaçmışdı. Bu gün tam məsuliyyətlə deyə bilərəm ki, Füzuli əməliyyatı hərbi kitablara daxil ediləcək. Təkcə Füzuli əməliyyatı yox, başqa əməliyyatlar. Bu gün məndə olan məlumata görə, hərbi mütəxəssislər artıq açıq-aydın bildirirlər ki, Azərbaycan Ordusu böyük döyüş qabiliyyətinə və texniki təminata malik olan bir ordudur".

Qeyd edək ki, Azərbaycan xalqı 29 illik müstəqillik dövründə kifayət qədər uğura imza atmış, tarix salnaməmizə çoxlu sayda əlamətdar günlər yazılmışdır. Həmin günlərin ən unudulmazlarından biri də Müstəqillik Aktının qəbul edilməsinə nail olduğumuz 18 oktyabr tarixidir. 2020-ci ildən sonra isə xalqımız 17 oktyabr və 18 oktyabrı ardıcıl olaraq bayram edəcəkdir. Çünki oktyabrın 17-si Qarabağın azad edilməsi üçün apardığımız müqəddəs mübarizədə dönüş günü kimi ordumuzun tarixinə yazıldı.

Həmin məqamı Ali Baş Komandanımız bu şəkildə xarakterizə etdi: "Bu gün tarixi bir gündür. On yeddisi oktyabr nəinki füzulililərin xatirəsində, Azərbaycan dövlətinin tarixində əbədi qalacaqdır. Bu gün biz hamımız, bütün Azərbaycan xalqımızın, dövlətimizin ən parlaq səhifəsini yazırıq, birlikdə yazırıq. Biz bu gün həmrəylik, qarşılıqlı dəstək, birlik göstərərək bu şanlı tarixi yazırıq. Biz xoşbəxtik ki, bu anları yaşayırıq. Ancaq bu anları səbirsizliklə gözləyən, həyatdan gedən on minlərlə bizim qaçqın, köçkünümüz əfsuslar olsun ki, bu günləri görməyib. Ancaq bu gün əminəm ki, onların ruhu şaddır. Çünki onların doğma dədə-baba torpaqları işğalçılardan azad edilib".

Bəli, dünyasını dəyişmiş minlərlə, on minlərlə soydaşımızın ruhu oktyabrın 17-də şad oldu. Allah Ordumuzu və Ali Baş Komandanımızı qorusun! Bizim haqq işimiz uğurla başa çatacaq! Qarabağ Azərbaycandır!

*İttifaq MİRZƏBƏYLİ,*
*"Xalq qəzeti"*